*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 1 oktyabr 2014-cü il | № 75 (1892) | Qiyməti 25 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın Həştərxan şəhərinə işgüzar səfəri

## Həştərxanda Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammiti keçirilib

Sentyabrın 29-da Rusiya Federasiyasının Həştərxan şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi, İran Prezidenti Həsən Ruhanini, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşıladı.

Sonra IV Xəzər Sammitində iştirak edən dövlət başçılarının məhdud tərkibdə görüşü oldu.

Geniş tərkibdə davam etdirilən görüşdə Sammitə ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış edərək bildirdi ki, Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti Sammiti ənənəvi olaraq etimad, qarşılıqlı anlaşma və işgüzar şəraitdə, konkret nəticələr əldə etmək niyyəti ilə keçirilir. Ən başlıcası odur ki, dövlət başçıları tərəfindən ilk dəfə beştərəfli əməkdaşlığın əsas prinsiplərini müəyyən edən siyasi Bəyanat razılaşdırılıb.

Rusiya Prezidenti Xəzəryanı ölkələrin energetika, dəniz nəqliyyatı, balıqçılıq, ekologiya, Xəzərin bioloji müxtəlifliyinin qorunması və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışdı.

Sammitdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.




### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli prezidentlər!

Hörmətli Sammit iştirakçıları!

İlk növbədə göstərilən qonaqpərvərliyə və Sammitin uğurlu təşkilinə görə Rusiya Federasiyasının Prezidentli Vladimir Vladimiroviç Putinə minnətdarlığımı bildirmək istəyirəm.

Bakıya tarixən mehriban dostluq və əməkdaşlıq münasibətləri ilə bağlı Həştərxan şəhərində yenidən olmağıma şadam.

2010-cu ildə Bakıda keçirilən Üçüncü Xəzər Sammiti Xəzər dənizinin hüquqi statusuna dair başlıca məsələlərin, xüsusən milli zonanın eninin və dənizin bioloji ehtiyatlarının mühafizəsinin razılaşdırılmasına ümumi yanaşmaların işlənib hazırlanmasına dair məsələlərin həlli üzrə danışıqlar prosesinə yeni təkan verdi.

Bakı Sammitinin yekunlarına əsasən imzalanan "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş" qaçaqmalçılığa, brakonyerliyə, qanunsuz miqrasiyaya, insan alverinə, mütəşəkkil cinayətkarlığa və terrorizmə qarşı mübarizə sahəsində sərhəd xidmətləri və digər dövlət qurumları arasında əməkdaşlığın və qarşılıqlı fəaliyyətin mühüm mexanizmini yaratdı.

Ötən dövrdə Xəzər dənizində əməkdaşlığın hüquqi bazasının möhkəmləndirilməsi üzrə xeyli iş görülüb. Tərəflər "Xəzər dənizində fövqəladə halların qabaqlanması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş"in razılaşdırılmasını başa çatdırıb, imzalanması üçün təklif ediblər. Xəzəryanı dövlətlərin bu sahədə əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin möhkəmlənməsi Xəzərdə daha səmərəli və təhlükəsiz fəaliyyətə xidmət edəcək.

Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası, Azərbaycan Respublikası və Rusiya Federasiyası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında ikitərəfli sazişlərin, habelə Azərbaycan, Qazaxıstan və Rusiya arasında üçtərəfli sazişin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Bu sazişlər Xəzərin hüquqi statusunun hərtərəfli tənzimlənməsi üçün mühüm rol oynayır. Azərbaycan hesab edir ki, bu sazişlərdə təsbit olunmuş prinsiplər bütün Xəzəryanı dövlətlər arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsinə dair razılaşmalara nail olmaq üçün yaxşı əsas ola bilər.

Biz Xəzər dənizini dostluq, sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi hesab edirik. Azərbaycan Xəzəryanı dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Xəzəryanı ölkələr arasında sıx dostluq münasibətləri və çoxvektorlu əməkdaşlıq bizim regionda sabitliyin, firavanlığın və təhlükəsizliyin rəhnidir.

Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti regional təhlükəsizliyə başlıca təhdiddir. Əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ və Azərbaycanın bu bölgəyə bitişik daha yeddi rayonu iyirmi ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Təəssüf ki, Ermənistan həmin qətnamələrə məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. Bu münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü əsasında həll edilməlidir. Təəssüf ki, Ermənistandakı mövcud diktator rejimi müasir dünyanın reallıqlarını ayıq-sayıq qiymətləndirmək və beynəlxalq hüquq normalarını adekvat qəbul etmək iqtidarında deyil. Ermənistan rejimi öz cəmiyyətində Azərbaycana qarşı mağara insanı səviyyəsində nifrət hissi yaymaqla, azərbaycanofobiyanı dövlət siyasəti səviyyəsinə qaldırmaqla, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dinlərarası münaqişə kimi səciyyələndirməklə bu münaqişənin uzanmasının mümkün nəticələrinə görə birbaşa məsuliyyət daşıyır.

Xəzər dənizi regionunda ticari-iqtisadi əlaqələrin dərinləşdirilməsi, enerji ehtiyatlarının mənimsənilməsi və beynəlxalq bazarlara nəql edilməsi üzrə investisiya şəraitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyalar yaradılması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi bizim üçün prioritet olaraq qalır. Xəzər dənizi nəqliyyat dəhlizlərinin inkişafı üzrə bir sıra beynəlxalq və regional layihələrdə əlaqələndirici elementdir.

Azərbaycan Xəzərdə qonşuları ilə neft-qaz sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir. İran və Rusiya şirkətləri Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının işlənilməsində sərmayədarlar kimi uğurla iştirak edirlər. Azərbaycan həm də Qazaxıstan və Türkmənistan şirkətləri üçün öz ərazisindən keçməklə neftin və neft məhsullarının tranzitini həyata keçirir. Azərbaycan, İran və Rusiya arasında üçtərəfli əməkdaşlıq çərçivəsində elektroenergetika və nəqliyyat sahəsində də yaxşı perspektivlər vardır. Bu il sentyabrın 22-də Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin birinci mərhələsi çərçivəsində Azərbaycanda bərə terminalı istifadəyə verilib. Bu limanın yükaşırma qabiliyyəti birinci mərhələdə on milyon ton yük və ildə əlli min konteyner olacaq. İki ildən sonra həyata keçirilməsi planlaşdırılan üçüncü mərhələ başa çatandan sonra limanın yükaşırma qabiliyyəti 25 milyon ton yükə və bir milyon konteynerə bərabər olacaq.

Həmkarlarıma bildirmək istəyirəm ki, keçən il Azərbaycanda yüksək dünya standartlarına cavab verən və bütün növlərdən olan gəmilər istehsal edə bilən yeni gəmiqayırma zavodu istifadəyə verilib. Bu zavod bizim ölkələrə nəqliyyat və kommunikasiyalar sahəsində layihələrin həyata keçirilməsi üzrə iqtisadi məsələlərin həlli üçün yeni imkanlar yaradır. Bizim yaratdığımız müasir logistika infrastrukturu ümumi işimizə böyük töhfədir və Xəzər dənizində əməkdaşlığı daha da dərinləşdirir.

Üçüncü Bakı Sammitinin protokol qərarının icrası üçün razılaşdırılmış "Xəzər dənizinin bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadə edilməsi haqqında Saziş"i xüsusi vurğulamaq istəyirəm.

Azərbaycan ekologiya sahəsində əməkdaşlığa çox böyük əhəmiyyət verir və Xəzərin ətraf mühitinin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin ümumi narahatlığına şərik çıxır. Biz daha səmərəli əməkdaşlığa ümumi səyi yüksək qiymətləndirir və Xəzər dənizinin ətraf mühitinin qorunmasına dair Çərçivə Konvensiyası üzrə işlərə öz töhfəmizi veririk.

Biz Bakı Sammitində qəbul edilmiş uzlaşdırılmış qərara sadiqliyimizi təsdiqləyərək, sahilyanı dövlətin suverenliyinin şamil edildiyi su məkanı da daxil olmaqla 25 dəniz mili ölçüsünü əsas götürərək milli zonanın eninin müvafiq şəkildə razılaşdırılmasına tərəfdarıq.

Biz dənizin dibinin həmhüdud sahələrinin bölgüsündə əsas norma kimi hamılıqla tanınmış orta xətt prinsipini toxunulmaz hesab edir, dənizçilik, Xəzər dənizindən digər dənizlərə sərbəst gediş-gəliş və tranzit məsələlərinə böyük əhəmiyyət veririk.

Azərbaycan həm də Xəzərdəki qonşularımızla hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Hesab edirik ki, Xəzər dənizində tərəflərin silahlı qüvvələrinin iştirakı və hərbi fəaliyyəti bütün Xəzəryanı dövlətlər üçün bərabər təhlükəsizlik şərtlərinin təmin edilməsi prinsipi əsasında həyata keçirilməlidir. Bu, region dövlətləri arasında qarşılıqlı etimadın güclənməsinə xidmət edəcək. Xəzər dənizi bundan sonra da sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonası olaraq qalmalıdır.

Sonda, heç şübhəsiz, bizim qarşımızda duran mühüm məsələlərin qəti həlli üçün Xəzəryanı dövlətlərin mövqelərinin daha da yaxınlaşmasına xidmət edəcək bu Sammitin təşkilinə görə Rusiya tərəfinə bir daha təşəkkürümü bildirirəm. Həmçinin əməkdaşlığın bütün sahələrinə, o cümlədən Xəzər dənizinin hüquqi statusuna aid məsələlərin Xəzəryanı dövlətlərin suveren hüquqlarına hörmət və qarşılıqlı faydalı tərəfdaşlıq ruhunda həllinə tərəfdar olduğumu təsdiq etmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 sentyabr 2014-cü il tarixli Sərəncamı ilə müddətli həqiqi hərbi xidmətə çağırılan və müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçulara

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş hərbi qulluqçular!

Bu gün siz həyatınızın ən şərəfli günlərindən birini yaşayırsınız.

Ümummilli liderimiz Heydər Əliyev vaxtilə demişdir ki, orduda xidmət edən əsgərlər, borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.

Siz elə bir vaxtda həqiqi hərbi xidmətdən ehtiyata buraxılırsınız ki, bu günlər Azərbaycan Ordusunun qəhrəman döyüşçüləri mövqelərimizə hücum etmiş erməni işğalçı qüvvələrinin layiqli dərslərini verərək rəşadət, cəsarət və peşəkarlıq nümunələri göstərmişlər. İndi hər yerdə Azərbaycan əsgərinin şərəfinə xoş sözlər eşitmək olar. Xalq öz ordusuna inanır və ona güvənir.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev 6 avqust 2014-cü ildə təmas xəttində döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış edərkən demişdir: "Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir..."

Bu, siz əsgərlərin xidmətinə ölkə rəhbərliyinin verdiyi ən yüksək dəyərdir. Əminəm ki, siz mülki həyatda da orduda aldığınız təlim-tərbiyə və təcrübəni dövlətimizin daha da qüdrətlənməsinə, orduya vətənpərvər gənclərin hazırlanmasına həsr edəcək, orduda komandirlərin etimadlarını doğrultduğunuz kimi, arxa cəbhədə valideynlərinizin də ümidlərini doğruldacaq, ata-ananıza layiqli övlad, Vətənə layiqli vətəndaş olacaqsınız.

Orduya çağırılan gənclər isə bilməlidirlər ki, əsgər həyatının özünəməxsus çətinlikləri vardır. Lakin öz Vətənini, torpağını, xalqını ürəkdən sevən, hərb elmini, etibar edilmiş silah və texnikanı dərindən öyrənən, komandir və rəislərin əmrlərini layiqincə yerinə yetirən hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçəcək və xalqımızın, ölkə rəhbərliyinin hörmət və məhəbbətini qazanacaqdır.

Torpaqlarımızın bir hissəsi düşmən işğalındadır. Qarşınızda duran ən mühüm vəzifə bu torpaqları düşmən əsarətindən xilas etməkdir. Bu vəzifəni uğurla həyata keçirmək üçün siz də Ali Baş Komandanın əmrlərinə hazır olmalı, əsgər həyatının hər anından səmərəli istifadə etməlisiniz.

Xidmətini şərəflə başa vurmuş hərbi qulluqçulara Vətənə nümunəvi xidmətlərinə görə təşəkkür edir, gənc əsgərlərə isə onların hərbi ənənələrini uğurla davam etdirərək Silahlı Qüvvələrimizin döyüş salnaməsinə yeni-yeni parlaq səhifələr yazmağı arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**

## Moldovanın nüfuzlu qəzeti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən yazır

Moldovanın nüfuzlu "Ekspert novostey" qəzetinin 26 sentyabr tarixli nömrəsində jurnalist Olqa Popanın Moldovanın paytaxtında "Dövlətlərin ərazi bütövlüyü və insan hüquqlarının müdafiəsinin təminatı" mövzusunda Beynəlxalq konfransa həsr olunan geniş məqaləsi dərc edilib.

Məqalədə qeyd olunur ki, Moldova Respublikasının parlament vəkili (ombudsman) Aureliya Qriqoriunun himayədarlığı altında keçirilən konfrans ictimaiyyətin diqqətini cəlb edib.

Tədbirdə siyasətçilər, diplomatlar, alimlər, Moldova, Azərbaycan, Ukrayna, Gürcüstan, İsrail, Pakistan və başqa ölkələrin vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər. Konfransın möhtəşəmliyi onun region və bütövlükdə dünya üçün aktuallığını vurğulayır.

Konfransda Abxaziya, Cənubi Osetiya, Dnestryanı münaqişələr, Ukraynadakı vəziyyətlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də xüsusi diqqət göstərilib.

Beynəlxalq konfransın əsas məqsədi beynəlxalq hüququn başlıca prinsipinin - dövlətin ərazi bütövlüyünün pozulmasının yolverilməzliyinə ictimaiyyətin müasir baxışını təqdim etmək, eləcə də vətəndaş cəmiyyətinin diqqətini tolerantlıq ideyasının inkişafına, ərazi problemlərinin sülh yolu ilə həllinə cəlb etməkdir.

**AzərTAc**

AZƏRBAYCAN ORDUSU

# “Hər bir təlim ordunun döyüşə hazırlığını göstərir”

## "Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" mövzusunda elmi-praktik konfrans keçirilib

***Silahlı Qüvvələrin döyüş hazırlığı planına və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, cəbhə bölgəsində yerləşən “N” hərbi hissəsində Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən təşkil olunan "Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin rəhbərliyi ilə keçirilən tədbirdə Müdafiə Nazirliyinin müvafiq idarə, xidmət, şöbə rəisləri, Əlahiddə Ümumqoşun Ordusunun, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin komandir və rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri, psixoloqlar, hərbi xidmətdə fərqlənən zabitlər, gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və əsgərlər iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini hörmət və ehtiramla yad ediblər.

**General-polkovnik Zakir HƏSƏNOV:**

"...Bu gün qarşımızda duran ən mühüm vəzifələrdən biri orduda mənəvi-psixoloji hazırlıq işini, eləcə də əsgəri heyətin vətənpərvərlik tərbiyəsini yüksəltmək üçün mümkün olan bütün üsul və vasitələrdən yaradıcılıqla istifadə etməkdir. Heç vaxt unutmamalısınız ki, ordunun maddi-texniki bazası nə qədər güclü olarsa, ordu nə qədər müasir silahlarla təchiz edilərsə belə, ordunun əsas gücü onun şəxsi heyətinin döyüş ruhunun mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasındadır".





Elmi-praktik konfransın işinə başlaması elan edildikdən sonra əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni ifa olundu.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik nitqi oxunduqdan sonra Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələlərinə dair məruzə və çıxışlar edildi, geniş müzakirələr aparıldı, təklif və tövsiyələr verildi.

Sonra general-leytenant Kərim Vəliyev giriş nitqi söyləyərək bildirdi ki, son zamanlar Silahlı Qüvvələrdə aparılan islahatlar şəxsi heyətin döyüş əzminin, mənəvi-psixoloji və peşəkar hazırlığı səviyyəsinin yüksək olduğunu deməyə əsas verir.

"Ordu quruculuğunun əsasını təşkil edən mənəvi-psixoloji təminat Silahlı Qüvvələrin döyüşə hazır olmasının ən əsas göstəricilərindən biridir. Ordu potensialına görə güclü ola bilər, lakin şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti yetərincə deyilsə, o ordu məğlubiyyətə düçardır. Bizim ən əsas vəzifəmiz ordunun döyüş qabiliyyətini artırıb, torpaqlarımızı düşmən-dən azad etməkdir. Yüksək nizam-intizam, təşkilatçılıq, şəxsi igidlik, qəhrəmanlıq nümunələri və bacarıq şəxsi heyətin zəruri keyfiyyətləridir. İnsan faktoru ən vacib faktor kimi qalmaqdadır, bunu hər kəs bilməlidir", - deyə general-leytenant Kərim Vəliyev xüsusi vurğuladı.

Qeyd edildi ki, "Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" mövzusunda keçirdiyimiz bugünkü elmi-praktiki konfrans hər birimizin həyatında və fəaliyyətində yeni mərhələnin başlanğıcı olacaq, qarşımızda yeni mühüm vəzifələr qoyacaq və məsuliyyətimizi daha da artıracaqdır. Mövzunun aktuallığı hər bir konfrans iştirakçısını düşünməyə, yeni yollar arayıb-axtarmağa, xalqa, Vətənə yeni nəfəs, yeni qüvvə ilə xidmətə ruhlandırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə ordumuzun maddi-texniki təminatı günbəgün güclənir, şəxsi heyət müasir texnika və silahlarla təchiz olunur. Ardıcıl olaraq cəbhə bölgələrində və Bakı ətrafı poliqonlarda qoşun növləri üzrə keçirilən irimiqyaslı taktiki təlimlər böyük rezonans doğurdu. Bu təlimlər Silahlı Qüvvələrimizin strukturunu təşkil edən bütün qoşun növlərinin döyüş hazırlığının yüksək olmasının təsdiqi ilə yanaşı, onların arsenalına daxil olan hərbi texnikaların modern texnologiyaya əsaslandığını, müasir döyüş standartlarına tam cavab verdiyini bir daha nümayiş etdirdi. Bununla da, hər bir təlim ordunun döyüşə hazırlığını göstərir.

Konfransda Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Rüfət Əmirov "Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" mövzusunda geniş məruzə ilə çıxış etdi.

Sonra "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında şəxsi heyətin tərbiyəsi", "Şəxsi heyəti torpaqlarımızın işğaldan azad olunmasına səfərbər etmək qarşımızda duran mühüm vəzifədir", "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə aparılan tərbiyə işinin əsas xüsusiyyətləri", "Hərbi qulluqçularla fərdi tərbiyə işinin və psixoloji testlərin təşkili", "Silahlı Qüvvələrdə nizamnamədənkənar münasibətlər və onların qarşısının alınması sistemi", "Silahlı Qüvvələrdə hüquq qaydalarının möhkəmləndirilməsi", "Silahlı Qüvvələrdə kütləvi informasiya vasitələri əməkdaşları ilə işin təşkili", "Zabitlərin peşə hazırlığı və təkmilləşdirilməsi işinin vəziyyəti", "Şəxsi heyətin qəhrəmanlıq ənənələri ruhunda tərbiyəsi" və digər mövzularda çıxışlar dinlənildi.

Sonda Müdafiə nazirinin əmrinə əsasən, Silahlı Qüvvələrdə keçirilmiş "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu", "Ən yaxşı təşviqat işi" müsabiqələrinin qalibləri qiymətli hədiyyələrlə mükafatlandırıldı. Müdafiənin ön xəttində xüsusilə fərqlənən hərbi qulluqçulara Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təsis etdiyi "Vətənə nümunəvi xidmətlərinə görə" mükafatı təqdim olundu.

Konfransın yekununa dair qətnamə qəbul edildi və tədbirin materiallarının toplu şəklində çap olunması qərara alındı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin növbəti birgə təlimlərinin Türkiyə Respublikasında keçirilməsi planlaşdırılır



***Sentyabrın 29-da “N” hərbi hissəsində Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Hərbi Hava Qüvvələrinin Şəxsi Heyətlə İş İdarəsinin rəisi briqada generalı Emin Ayık Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin təlimlərində iştirak edən şəxsi heyətlə görüşüblər.***





Uçuş və texniki heyətlə keçirilən görüşdə birgə təlim-döyüş uçuşları zamanı praktik tapşırıqlar, şərti hava döyüşləri imitasiya olunmaqla müxtəlif manevrlərin yerinə yetirilməsi və yer hədəflərinin məhv edilməsi məqsədilə icra olunan atışların ilkin təhlili aparılıb.

Qonaqlara helikopter pilotlarının hazırlanmasında istifadə olunan trenajorlar nümayiş etdirilib.

Sonra birgə təlimlərin keçirildiyi aerodromda qonaqlara təlimin gedişi barədə brifinq təqdim olunub və növbəti mərhələdə icra olunacaq təlim-məşq tapşırıqları geniş heyətdə müzakirə edilib.

Görüş zamanı Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin növbəti birgə təlimlərinin Türkiyə Respublikası ərazisində 2015-ci ilin mart ayında keçirilməsinin planlaşdırıldığı qeyd edilib.

Görüşlərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşesi briqada generalı Hasan Nevzat Taşdeler də iştirak edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

# Birgə təlimlərin növbəti mərhələsində hərbi helikopterlər döyüş uçuşları keçirib

*29 sentyabr 2014-cü il.*

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimlərinin növbəti mərhələsində hərbi helikopterlər döyüş uçuşları keçiriblər.

Müxtəlif manevrlər yerinə yetirən pilotlar şərti döyüş imitasiya olunmaqla quru qoşunlarına dəstək vermək məqsədilə yer hədəflərinə helikopterlərdən atışlar icra ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**foto**
**Vüsal HƏMİDOVUNDUR**



# Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasının nümayəndə heyəti ölkəmizə gəlib

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Silahlı Qüvvələri arasında 2014-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasından tibb xidməti polkovniki, professor Türker Çetinin rəhbərliyi ilə 6 nəfərlik professor-dosent heyəti sentyabrın 29-dan ölkəmizdə səfərdədir.***

Qonaqlar əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını, o cümlədən Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.



Sentyabrın 30-da səfər çərçivəsində Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevlə polkovnik Türker Çetinin görüşü keçirilib.

Görüşdə Azərbaycan və Türkiyənin hərbi təbabət sahəsində inkişaf perspektivləri, hərbi həkimlərin hazırlanmasında Türkiyənin imkanları və ümumi maraq kəsb edən digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Oktyabrın 2-dək davam edəcək səfər proqramında türk həkimlərin Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin tələbə və rezidentlərinə mühazirələrin oxunması, Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan xəstələrin konsultasiyası, azərbaycanlı həkimlərlə birgə cərrahi və ortopedik əməliyyatların aparılması nəzərdə tutulub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Bir ailədən iki şəhid

## Şəhid leytenant Allahverdi Əbülfəz oğlu Baxışlının dəfn mərasimi keçirilib



***Səhəri gözüaçıq qarşılayan gənc leytenant Allahverdi Baxışlı tabeliyində olan döyüşçülərə gün ərzində döyüş növbətçiliyinin daha sayıq aparılmasını tapşırıb bir az dincəlmək istəyirdi. Bu zaman düşmən postlara aramsız atəş açmağa başladı. Gənc leytenant dərhal "Döyüşə!" komandası verdi. Özü isə düşmənin daha çox gülləyə məruz qoyduğu posta üz tutdu. Nədənsə, bu dəfə düşmən igid döyüşçülərimizin açdığı cavab atəşinə baxmayaraq susmaq bilmirdi. Yağının məqsədini duyan leytenant Allahverdi Baxışlı avtomatdan ayrı-ayrı atəş sektorlarından düşmənə dəqiq atəş də açdı. Buna baxmayaraq düşmən susmurdu. O, illər uzunu nifrət bəslədiyi düşməndən qisas almağın zamanı yetişdiyini duymuşdu. Bir neçə dəfə pulemyotdan quldurların atəş nöqtələrinə zərbələr endirdi. Bundan sonra düşmən atəşə bir qədər ara verdi. O, düşməni məhv etmək üçün səngərdə mövqe seçdi. Bundan duyuq düşən düşmənlər igid döyüşçünün olduğu postu hər tərəfdən güllə yağışına tutdular. Atılan güllələrdən biri gənc zabitin həyatına son qoydu...***



Ötən bazar günü Hacıqabul rayonunun Şəhidlər xiyabanında torpağa tapşırılan leytenant Baxışlı Allahverdi Əbülfəz oğlu qısa, lakin şərəfli ömür yaşadı. Onun üç yaşı olanda atası Əbülfəz Qarabağ uğrunda gedən döyüşlərə könüllü gedib, 1994-cü ilin aprel ayında Ağdamın Güllücə kəndi istiqamətində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Atasız böyüyən balaca Allahverdi yaşa dolduqca ermənilərə olan nifrəti daha da artır və hər zaman düşməndən atasının qisasını necə alacağını düşünürdü. Beləliklə, o, on üç yaşı tamam olanda öz gələcəyini müəyyən edir. Anası Solmaz xanımı əmin edir ki, o, gələcəkdə bacarıqlı, nümunəvi xidmətləri ilə şəhid atasının ruhunu şad edən bir zabit olacaq. Allahverdi sözündə qəti idi. Onu bu fikirdən heç kim daşındıra bilməzdi. Həmin il Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmaq üçün yeniyetmə sənədlərini Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına təqdim etdi. İmtahanlarda yüksək bal topladı.

Kursant Allahverdi Baxışlı C.Naxçıvanski adına Hərbi Liseyi müvəffəqiyyətlə başa vuraraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. Dörd il burada təhsil alandan sonra 2012-ci ildə kursant həyatına əlvida deyir.

Gənc leytenant kimi hərbi xidmətinin yeni mərhələsinə qədəm qoyur. Onunla eyni hərbi hissədə xidmət etmiş Allahverdini yaxından tanıyan zabit Anar Binyətəliyev deyir ki, o, əvvəlcə ehtiyatda olub. "Ötən il dekabr ayında isə komandanlığa raportla müraciət edərək ön xəttə, düşmənlə üz-üzə posta göndərilməyini xahiş edib. Komandanlıq onun xahişinə müsbət cavab verib. Şəxsi intizamı, bacarığı və tələbkarlığı ilə hər kəsin rəğbətinin qazanıb".

Həmin gün Hacıqabul şəhərində şəhid Əbülfəs Baxışlı küçəsində böyük izdiham vardı. Əbülfəz Baxışlının evinin qarşısında leytenant Allahverdi Baxışlının vida mərasimi təşkil edilmişdi.

Mərasimdə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani gənc zabitin Vətənə xidmət peşəsinə həsr etdiyi qısa, lakin şərəfli ömür yolundan, onun yüksək əxlaqi-mənəvi, iradi keyfiyyətlərindən danışdı.

Mərasimdə Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov çıxış edərək ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə rayonun 90-dək şəhid verdiyini xatırlatdı. Rayon rəhbəri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan bəhs etdi.

Sonra Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanlarla qürur duyduğunu, onların daim xatirələrdə yaşayacağını, torpaqlarımızın isə tezliklə düşmən işğalından azad ediləcəyinə əmin olduğunu bildirdi.

Leytenant Allahverdi Baxışlının xidmət etdiyi birləşmə komandirinin müavini polkovnik Elçin Kərimov bildirdi ki, o, bir dəfə də olsun şəhid oğlu olduğunu dilinə gətirməyib. Həmin gün biz şəhid oğlunu itirsək də, düşməni də cavabsız qoymadıq. Atışmada erməni zabitinin oğlunun öldürüldüyü məlum oldu.

Mərasim başa çatdıqdan sonra şəhidin cənazəsi fəxri qarovul dəstəsinin və böyük izdihamın müşayiəti ilə Hacıqabul şəhərinin Şəhidlər xiyabanına aparıldı. Şəhid Allahverdi Baxışlı əsgəri ehtiram ənənələrinə uyğun yaylım atəşləri altında son mənzilə yola salındı.

Tabutun üzərinə sərilmiş üçrəngli Dövlət Bayrağı əbədi xatirə olaraq şəhidin babası Baxış kişiyə təqdim edildi. Bayrağı qəbul edən babası onlara ağır itki üz verməsinə baxmayaraq oğlunun və nəvəsinin şərəfli ölümü, şəhidliyi ilə ailələrinə başucalığı gətirdiyini qeyd etdi. Vida mərasimini yüksək səviyyədə təşkil etdiklərinə görə ölkə başçısına, Müdafiə Nazirliyinin və Hacıqabul rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlıq etdi.





Şəhidin məzarı üzərinə Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidməti, rayon İcra Hakimiyyəti adından əklil və gül dəstələri qoyuldu.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Sentyabrın 27-də saat 10.25 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozaraq mövqelərimizi atəşə tutublar.

Düşmən tərəfindən açılan atəşdən Silahlı Qüvvələrimizin 1991-ci ildə Hacıqabul rayonunda anadan olan zabiti leytenant Baxışlı Allahverdi Əbülfəz oğlu döyüş postunda şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin valideynlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Sentyabrın 29-dan oktyabrın 3-dək Bakı şəhərində "Hərbi xidmətkeçmənin idarəolunması və peşəkar hazırlıq" mövzusunda seminar; oktyabrın 10-dək Budapeşt şəhərində (Macarıstan) "NATO-nun hərbi-mülki əməkdaşlıq üzrə səhra mütəxəssisi" kursu; Buxarest şəhərində (Rumıniya) sülhü dəstəkləmə əməliyyatları kursu; oktyabrın 1-dən 2-dək Belqrad şəhərində (Serbiya) əməliyyat imkanları konsepsiyası, qiymətləndirmə və rəy proqramı üzrə illik konfrans keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 30-da Ağdam rayonunun Sarıcalı kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və onun səhra köməkçisi Yevgeni Şarov keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Peter Svedberq keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***30 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Goranboy, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Qabaqcıl təcrübə*

# Ən yaxşı manqa komandiri necə seçilir?

## Tabor komandirinin qabaqcıl təcrübəsi bu məsələnin müsbət həllində əsas vasitədir

***Bu günlərdə cəbhə bölgəsindəki "N" hərbi hissəsində zabit Rasim Manafov məni ön xətdə xidmət edən bacarıqlı tabor komandirlərindən biri ilə tanış etdi. Zabit Tofiq Muradovla tanışlıqdan öyrənirəm ki, 2004-cü ildə Bakıda ali hərbi təhsilini başa vurduqdan sonra, əsasən, düşmənlə təmas xəttində xidmətini davam etdirib. Əslində, müdafiənin ön xəttində xidmət etməyin özəl çətinlikləri təcrübəli zabitin bəzi səmərəli metod və üsullardan istifadə etməsinə zəmin yaradıb.***



- İlk növbədə bir vacib məsələyə diqqət yetirdim ki, şəxsi heyətin idarə edilməsində zabit-gizirlərlə yanaşı, manqa komandirlərinin də üzərinə yük düşür, - deyə zabit bildirir. - Bu baxımdan ən təcrübəli əsgərlərin bu posta irəli çəkilməsinə önəm verirəm. Həm gündəlik döyüş növbətçiliyində apardığım müşahidələr, həm də əsgərlərimlə fərdi söhbətlərim mənə bu imkanı yaradır. Yetərli təlim-tərbiyə keçmiş, vətənpərvərlik hisslərinə malik olan və dövlətini, xalqını sevən əsgərlərlə təmas yaratmağa üstünlük verirəm. Şübhəsiz, əsgərin vətənpərvər döyüşçü kimi yetişməsində layiqli ailə tərbiyəsi də əsas amildir. Elə buna görə də hansı əsgərin necə ailə mühitində böyüməsinə fikir verirəm.

Tabor komandirinə görə, yalnız vətənpərvərliyi və mənəvi-psixoloji hazırlığı yetərli olan, həmçinin, bacarıqlı döyüşçü xüsusiyyətlərinə malik olan əsgər manqa komandiri vəzifəsində xidmət etməyə namizəd göstərilə bilər. "Ümumiyyətlə, bütün əsgərlərimə izah edirəm ki, ön xətdə xidmət etmək Vətəni düşməndən qorumaq kimi ən məsuliyyətli tapşırığı yerinə yetirmək deməkdir. Bu vəzifə çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Bu gün Azərbaycan gəncliyinin ən mübariz, xalqına və Vətəninə sədaqətli olan nümayəndələri ön xətdə əsgəri borclarını yerinə yetirirlər".

- Artıq bizim taborda "Ən yaxşı manqa komandiri" adı uğrunda yarışın keçirilməsi dəyərli ənənəyə çevrilib, - deyir zabit. - Bu yarışmada döyüş və mənəvi-psixoloji hazırlığın bütün şərtləri üzrə manqa komandiri hesabat verir. Həm praktik, həm də nəzəri testlərin nəticələrinə görə ən yüksək hazırlığa malik olan manqa komandiri hərbi birləşmənin komandanlığı tərəfindən mükafatlandırılır. Sonuncu belə yarışmada təcrübəli döyüşçülərimizdən olan əsgər Rahib Mustafayev "Ən yaxşı manqa komandiri" seçilib. İnanıram ki, Rahib ona göstərilən yüksək etimadı layiqincə doğrulda biləcək.

Manqa komandiri Rahib Mustafayevə yüksək döyüş uğurları arzulayırıq. İnanırıq ki, Rahib və döyüşçü dostları Vətənimizin müdafiəsində mətin addımlarını atacaqlar.

**Arif VAQİFOĞLU, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Səfir erməniləri hədələdi



Rusiyanın Ermənistandakı keçmiş səfiri Vyaçeslav Kovalenko Ermənistan Gömrük İttifaqına üzv olmaqdan imtina edərsə, tək Ermənistan dövlətinin deyil, eyni zamanda erməni xalqının gələcəkdə mövcudluğunun şübhə altında olacağını bildirib. 2009-2013-cü ildə səfir olmuş Kovalenko bu sözləri İrəvan və Moskva arasında telekörpüyə həsr olunmuş mətbuat konfransında bildirib. "İstənilən halda Ermənistan seçimini etməlidir. Mən hesab edirəm ki, situasiya belə inkişaf edəcək ki, Ermənistandan seçim etmək tələb ediləcək. Ermənistan belə çətin siyasi situasiya olan beynəlxalq aləmdə uzun müddət varlıq göstərə bilməyəcək. Ermənistanın bu tarixi seçimindən ölkənin gələcəyi və ümumilikdə ermənilərin gələcəyi asılı olacaq", - deyə Kovolenko bildirib.

"Biz Ukraynada hazırda nələr baş verdiyini görürük. ABŞ və Qərb ölkələrinin dəstəyilə orada hansı antihumanist hərəkətlərin olduğuna hamımız şahidik. Allah eləməsin ki, bütün bu proseslər Ermənistanda olsun. Bu belə olacaq ya olmayacaq, ilk növbədə Ermənistanın tarixi seçimindən asılı olacaq", - deyə Kovolenko deyib.

## Türkiyə İŞİD-lə döyüşə qoşulur



"Türkiyə İŞİD-ə qarşı əməliyyatlara dəstək ola bilər, buna siyasi və hərbi metodlar da daxildir". Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda jurnalistlərə müsahibəsində bildirib. "Keçirilən əməliyyatlara pozitiv baxırıq. Bunlar fasilə olmadan getməlidir. Bizim isə İŞİD-ə qarşı əməliyyatlara dəstəyimiz hərbi və ya siyasi ola bilər", - deyə Türkiyə Prezidenti bildirib.

"Türkiyə üzərinə düşən vəzifəyə əsasən, İŞİD-lə döyüşlərdə əlindən gələni edə bilər. Hər hansı bir addım atdıqda regionda Suriya və İraqı bir bütöv kimi götürmək lazımdır. Barak Obama belə addım atdı və bu düz yanaşma idi", - deyə Ərdoğan qeyd edib.

## Kanadada Xocalı oturacağı



Xocalı soyqırımını əbədiləşdirmək üçün quraşdırılan oturacağın fotoları yayımlanıb. ANS PRESS-in məlumatına görə, bu təşəbbüs Azərbaycanın Kanadadakı səfirliyinin dəstəyi ilə Kalqari şəhərində yaşayan həmyerlilərimizin qurduğu Alberta Azərbaycan Mədəniyyəti Cəmiyyəti tərəfindən edilib. Kalqari şəhərinin "Edworthy" parkında Xocalı faciəsinin qurbanlarının xatirəsinə həsr olunmuş oturacağın açılışı keçirilib. Oturacağın üzərindəki memorial lövhədə "Xocalı faciəsi qurbanlarının xatirəsinə" sözləri həkk edilib.

## İraq Prezidenti: Ölkənin Silahlı Qüvvələri terrorçuların hücumunu dayandırıb



İraq Silahlı Qüvvələri, kürd hərbi birləşmələri və könüllü xalq dəstələri "İraq İslam Şam Dövləti" (İŞİD) adlandırılan terrorçu ekstremist qruplaşmanın hücumlarının qarşısını almağa müvəffəq olub. Bunu İraq Prezidenti Fuad Maasum cümə günü BMT Baş Assambleyasının tribunasından bəyan edib.

"Biz, həmçinin terrorçular tərəfindən işğal olunmuş şəhəri azad edə və bir sıra digər yaşayış məntəqələrinin mühasirəsini aradan qaldıra bilmişik", - deyə İraq Prezidenti qeyd edib.

F.Maasum terrorçulara qarşı mübarizədə beynəlxalq ictimaiyyətin, xüsusən ABŞ və Avropa ölkələrinin göstərdiyi yardıma görə minnətdarlığını bildirib. "İŞİD sərhəd tanımır, o, transmilli xarakter daşıyır. Bu qruplaşmanı yalnız onun hərbi, təşkilati və maliyyə resurslarına qarşı mübarizə apara biləcək vahid qlobal cəbhə formalaşdırmaqla məhv etmək olar", - deyə İraq Prezidenti vurğulayıb.

## Qırğızıstan ilə Türkiyə hərbi sahədə əməkdaşlıq müqaviləsi imzalayıb



Türkiyənin müdafiə naziri İsmet Yılmaz Qırğızıstanda səfərdə olub, bu ölkənin Baş naziri Comart Otorbaev, müdafiə naziri Abibulla Kudayberdiev, baş qərargah rəisi Asanbek Alımxocaev ilə və digər rəsmi şəxslərlə görüşüb.

Görüşdə iki ölkə arasında təhsil, səhiyyə, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə əlaqələr, müqavilə-hüquq bazasının təkmilləşdirilməsi, qırğız hərbçilərinin Türkiyənin hərbi xəstəxanalarında müalicəsi, Bişkekdə ali hərbi məktəbin tikilməsi imkanları və digər məsələlər müzakirə edilib.

Səfər çərçivəsində Qırğızıstan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə və digər sənədlər imzalanıb.

## Günəş batareyaları ilə işləyən avtomobil 500 kilometrdən çox məsafə qət edib



"Frans-Press" agentliyi yazır ki, günəş batareyaları ilə işləyən avtomobil Los-Ancelesdən San-Fransiskoyadək 560 kilometr məsafəni qət edib.

Qeyri-adi avtomobil insanların marağına səbəb olub. "Stella" avtomobili tam enerji ilə 800 kilometr məsafəni qət edə bilir. Avtomobil saatda orta hesabla 70 kilometr sürətlə hərəkət edir, maksimal sürəti saatda 120 kilometrdir. Maşın Hollandiyanın "Solar Team Eindhoven" komandası tərəfindən hazırlanıb.

"Stella" avtomobili üçün günəş batareyalarının qiyməti 2600 avro məbləğindədir. Maşının korpusunda alüminium və karbon lifi materiallarından istifadə edilib. Buna görə avtomobilin çəkisi təxminən 380 kiloqram təşkil edir.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

# Bərdə şəhərində hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib

***Bərdə - Qarabağın son dayanacağı. Eramızdan xeyli əvvəllərə gedib çıxan tarixi bütöv Azərbaycanımızın tarixinin ən dərin qatı. Gözəlliyinin vəsfi dillər əzbəri. "Arranın anası", Nüşabə yurdu. Bu yurdun insanları bütün dövrlərdə qəhrəmandır. Yenilməzlik, mübarizlik, mərdlik, sədaqətlilik simvoluna çevrilib bu diyarın insanları. Zaman-zaman döyüşlərdən üzüağ çıxıb. Torpaqlarını yadelli işğalçılardan qoruyublar.***



Azərbaycanın ən qədim şəhərlərindən biri olan Bərdənin tarixi bu gün də araşdırılır, sirli-sehrli mənbəsi dəqiqləşdirilir. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Bərdə V əsrdə Albaniyanın paytaxtı elan olunmuşdu. 552-ci ildə Alban kilsəsinin də mərkəzi Bərdəyə köçürülüb. Orta əsr tarixçiləri Bərdənin Tərtər çayının Kürlə qovuşduğu yerdən 20 km aralıda olduğunu göstərirlər. 3000 ildən çox yaşı olan Bərdə tarixin ağır sınaqlarına çəkilsə də, hər zaman məğrur dayanıb. Öz tarixi missiyasına sadiq qalaraq, bu gün də əyilməzdir, məğrurdur.

Bərdənin tarixinə qısaca ekskurs heç də təsadüfi deyil. Bu günlərdə Bərdə şəhərinin mərkəzi meydanında böyük qələbəlik, insanlarda bayram əhval-ruhiyyəsi var idi. Bərdə yeni tarixi bir gün yaşayırdı. Bu şəhər həm arxa cəbhə, həm də ön cəbhə kimi fəaliyyətdə olub. Təsadüfi deyil ki, Qarabağ müharibəsinin birinci mərhələsində Bərdə şəhəri qərargaha çevrildi, igid oğulları ermənilərə qarşı qəhrəmanlıqla vuruşub, düşmənlə mübarizədə amansız oldular. İzdihamlı mərkəzi meydan döyüş meydanına bənzəyirdi. Göy, yaşıl, qırmızı bayraqlar qədim, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün hərbi geyimində olan əsgərlər, səhnə tərtibatı insanın daxilində qürur hissi alovlandırırdı. "Hər şey ordu üçün, hər şey qələbə üçün" teatrlaşdırılmış kütləvi mərasim Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Bərdə rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə həyata keçirildi. Tədbirdə millət vəkilləri, Bərdə rayon İcra Hakimiyyəti başçısı, Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Elbrus Orucov, polkovnik Rüfət Əmirov, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini general-mayor Novruzəli Orucov, hərbi qulluqçular, Böyük Vətən, Əfqanıstan, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimai xadimlər, ictimaiyyət nümayəndələri iştirak etdilər.

Hərbi vətənpərvərlik bayramı Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlandı. Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev tədbir iştirakçılarını hərbi vətənpərvərlik bayramı münasibəti ilə təbrik edərək dedi: "Ali Baş Komandan tez-tez cəbhə bölgələrində olur, hərbi qulluqçularla görüşür, onların problemləri və qayğıları ilə şəxsən tanış olur, irimiqyaslı taktiki təlimləri izləyir, əmr, göstəriş və tapşırıqlarını verir. Bu gün ölkəmizdə ordu mövzusu əsas mövzudur. Ordumuz daim diqqət mərkəzindədir. Orduya qayğı artıq ümumxalq işinə çevrilib. Bu bayram da ordu ilə xalqın monolit birliyinin nümayişinə çevriləcək və hər birimiz Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olacağımızı bir daha bəyan edəcəyik".




Tədbirdə Milli Məclisin deputatları Zahid Oruc və Xanhüseyn Kazımlı Azərbaycanda həyata keçirilən ordu quruculuğu işindən fəxrlə danışdılar. Qeyd edildi ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu istiqamətində başladığı işlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Azərbaycan Ordusunun maddi-texniki bazası, müasir silahlarla təminatı, ən əsası şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji əhval-ruhiyyəsi işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə böyük inam yaradır.



Polkovnik Abdulla Qurbaninin ssenari müəllifi olduğu tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra bədii hissəyə start verilir. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, tanınmış incəsənət ustalarının ifasında hərbi vətənpərvərlik mövzusunda mahnılar və rəqslər tədbir iştirakçılarına təqdim edilir. "Hər şey ordu üçün, hər şey qələbə üçün" mövzusunu əhatələyən musiqili bədii kompozisiyalar, xüsusi təyinatlı qrupun döyüş tapşırığı nümayiş etdirməsi səhnələri iştirakçılarda xoş ovqat yaratdı. Quruluşu rəngarəng olan səhnələrə tamaşa etdikcə, musiqi nömrələrini izlədikcə, sadə vətəndaşlarla hərbçilərin meydanda daha sıx birləşdiyinin şahidi olurduq.



***Haydı igid oğullar,***
***Qarabağa yürüş var,***

- deyən cəngavərlərin göstərdiyi teatrlaşdırılmış səhnə igidlər diyarı Bərdədə daha möhtəşəm görünürdü.

Xalq artisti Zümrüd Məmmədovanın ifasında səslənən "Qardaşım əsgər gedir" mahnısının sədaları altında hərbi xidmətə yola düşəcək gənc çağırışçılar rəqs edirlər. El qızları əllərində bəzənmiş xonçalarla onlara yaxınlaşır. Budur, sanki uzaq tarixi keçmişin yolunu Bərdədən salan Qarabağın simvolu - at meydana gətirilir. "Qaçaq Nəbi" mahnısının sədası bütün Qarabağa yayılır. Qəhrəman Nüşabənin səhnələşdirilmiş obrazını, dekorda Şuşanın təsvirini, Xan qızı Natəvan ilə şair Molla Pənah Vaqifin şeir deyişməsini tədbir iştirakçıları maraqla izlədilər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

## İdman

### Voleybolçularımız dünya çempionatının növbəti mərhələsinə vəsiqə qazanıb



Azərbaycanın qadın voleybolçulardan ibarət milli komandası sentyabrın 28-də İtaliyada təşkil olunan dünya çempionatında növbəti qələbəsini qazanıb.

Komandamız Kuba yığması ilə qarşılaşmadan 3-1 (25-20, 25-27, 25-20, 25-22) hesabı ilə qalib ayrılıb.

Bununla da Azərbaycan millisi dünya çempionatının növbəti mərhələsinə vəsiqə qazanıb.

### Azərbaycan boksçusu WBO-nun yeni reytinq cədvəlində irəliləyib



"Qəbələ" idman klubunun üzvü Fariz Məmmədov Dünya Boks Təşkilatının (WBO) sentyabr ayı üçün açıqlanan yeni reytinq cədvəlində mövqeyini gücləndirib.

AzərTAc xəbər verir ki, F.Məmmədov iyunun 8-də almaniyalı Mattias Pelkə nokautla qalib gələrək WBO-nun Avropa kəmərinə sahib çıxmaqla orta yüngül çəki dərəcəsində (66,68 kq) dünyanın ən güclü 10 boksçusu sırasına düşüb. İdmançımız avqust ayı ilə müqayisədə mövqeyini daha da gücləndirib.

Ötən ay doqquzuncu yerdə olan F.Məmmədov sentyabrda bir pillə də irəliləyib və hazırda öz çəki dərəcəsi üzrə dünyada səkkizincidir.

### Bakı kubokunun qalibləri



"Sərhədçi" Olimpiya İdman Mərkəzində qarışıq döyüş növləri üzrə açıq Bakı kuboku yarışları keçirilib. Turnirdə 18 idmançı qızıl medal uğrunda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Elnar İbrahimov (57 kq), Əlicabbar Nuriyev (62 kq), Oruc Zamanov (66 kq), Nəriman Abbasov (71 kq), Hüseyn Əliyev (77 kq), Ramil Alıyev (84 kq) və Rüfət Əsədov (ağır çəki) qızıl medal qazanıb. Yarışda 93 kiloqram çəki dərəcəsində qalib müəyyənləşmədiyindən Əfqan Məmmədov və Yusif Ağayev qızıl medalla mükafatlandırılıblar. Təşkilatçıların 66 kiloqram çəki dərəcəsində "Super döyüş" adı verdiyi görüşdə isə Vüqar Məmmədzadə qalib olub.

### "Neftçi" Ağdamın "Qarabağ" kollektivinə məğlub oldu



Sentyabrın 27-də futbol üzrə Topaz Premyer Liqasının yeddinci turunun mərkəzi görüşündə Bakıdakı İsmət Qayıbov adına Bakıxanov qəsəbə stadionunda "Neftçi" komandası Ağdamın "Qarabağ" kollektivini qəbul edib.

AzərTAc xəbər verir ki, görüş qonaqların 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Ağdam təmsilçisinin heyətində Riçard Almeyda (penaltidən), Muarem Muarem və Vüqar Nadirov fərqlənib. Bakılıların yeganə qolunu Ernest Nfor vurub.

### "Atasport" (Bakı) XIII Azərbaycan çempionatının qalibi olub



Kişi otüstü xokkey komandaları arasında keçirilən Azərbaycan çempionatına yekun vurulub.

AzərTAc xəbər verir ki, ölkə çempionatının yüksək dəstəsində son görüşlər elə bir prinsipial xarakter daşımayıb. Belə ki, yarışın başa çatmasına bir tur qalmış "Atasport" (Bakı) qızıl, "Akkord" isə gümüş mükafatları təmin ediblər. Bürünc medala isə Qusarın "Şahdağ" komandasının sahib olacağı şübhə doğurmurdu. Sonuncu turda "Atasport" (Bakı) komandası "Atasport - Sumqayıt"a 8:6, "Akkord" kollektivi isə "Şahdağ"a 3:2 hesabı ilə qalib gəliblər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

## Xarici hərbi xronika

### Kosmik raket kompleksi

Amur vilayətinin Şərq kosmodromunda 2016-2025-ci illər üçün nəzərdə tutulmuş Federal Kosmik Proqramı çərçivəsində raket daşıyıcıları ilə birlikdə "Soyuz-2" kosmik raket kompleksinin tikintisi üzrə işlər artıq həyata keçirilməkdədir. Bu ərazidən orbitə 8,4 tona qədər faydalı yüklər daşınacaq. Daha sonra isə çəkisi 25 tona qədər olan avtomat kosmik aparatlar və 5,2 tonluq ağır yükləri geostasionar orbitə çıxarmaq üçün Amur sinifli kosmik raket kompleksinin tikintisi də nəzərdə tutulub. Mövcud raket daşıyıcıları üçün hidrogen-oksigen distillə bloklarının da hazırlanması planlaşdırılıb. Şərq kosmodromundan pilotsuzların 2015-ci il, pilotluların isə 2018-ci ilə qədər orbitə buraxılması da nəzərdə tutulub.

### Yeni qırıcılar üçün aviasiya cihazlanması

Rusiyanin MiQ Təyyarəqayırma Korporasiyası ilə "Aviasiya cihazlandırma" Holdinqi arasında coxfunksiyalı MiQ-29KJKUB, MiQ-29MM2 və MiQ-35 qırıcılarını müasir cihazlarla təmin etmək üçün müqavilə bağlanıb. Müqavilənin müddəti 2020-ci ilə hesablanıb və qiyməti 4 milyard rubl dəyərindədir. Müqavilənin şərtlərinə görə, "Aviasiya cihazlandırması" Holdinqi yerüstü xidmət vasitələri, hava, azot, oksigen təchizatı üçün qurğu, həmçinin hidro qurğu və hidrostend, döyüş təyyarələrinin bort elektrik şəbəkəsi üçün avtomat mühafizə, siqnalizasiya sistemi, nəzarət üçün kompleks aparatlar və s. qoyuluşunu təmin etməlidir. MiQ Korporasiyasının baş direktoru Sergey Korotkovun sözlərinə görə, Holdinq şirkəti ilə əldə olunan bu müqavilə "MiQ" qırıcılarının ritmik istehsalını təmin edəcək.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

*Yeni kitablar*

## Təsəlli

***1995-ci ilin 28 oktyabr günü...***
***Bu gün tarixə faciə günü kimi yazıldı...***
***Həmin günə görə Azərbaycan Respublikasının Prezidenti iki gün matəm elan eləmişdi...***
***O faciə olmasaydı, faciə anında orda o olmasaydı, faciəyə rast gələnləri xilas etmək üçün özünü odun-alovun içinə atmasaydı...***

Çingiz Babayev Bakıda anadan olmuşdu. Texniki Universitetin məzunuydu. "Azərelektroterm" zavodunda işləmişdi. Az müddətdən sonra hərbçi olmağı qərara almışdı. C.Naxçıvanski adına Hərbi Liseydə xidmət edirdi. Həm də böyük sevgilərlə, hərbi biliklərin ilkinlərini liseyin məzunlarının dərindən mənimsəmələrinə böyük sayğılar göstərməklə. Onlarla apardığı söhbətlərdə Vətəni sevməyin mənəvi borc olmasından danışardı, Vətən naminə şahid olanların ömür yolundan söhbət açardı. Hərbçi ömrünün işığının daha aydın, daha nurlu, daha gözçəkən, ...olduğunu qürurla bildirərdi. Onu da deyərdi ki, Vətən sevgisi tədris olunmur, duyulur, müdavimin qanına-canına dünyaduyumuyla, komandirlərinin söhbətləriylə, mütaliəylə, ... hopur. Şəhidlərin ömür yolu da çox mətləblərə aydınlıq gətirir. Türk şairi Nazim Hikmətin bir şeirini də təkrarlamağı sevirdi:

***Sən yanmasan,***
***Mən yanmasam,***
***Biz yanmasaq,***
***Necə çıxar***
***qaranlıqlar aydınlığa?!***




Qaranlıq deyəndə, Qarabağın üstünə çökmüş ermənilik dumanını anırdı. Torpaqlarımızın işğaldan azad olunacağı günü varlığıyla gözləyirdi; onu Silahlı Qüvvələrimizə elə bu istək gətirmişdi...

Faciə günü köməyə möhtac olan sərnişinləri vaqonlardan çıxardanların sırasında C.Naxçıvanski adına Hərbi Liseyin zabiti baş leytenant Çingiz Babayev və onunla birlikdə iki müdavim də vardı. Beş nəfər, on, on beş, əlli nəfər,... xilas edilir. Və Çingiz tüstünün tünlüyündə özü də huşunu itirir. Müdavimləri də onun kimi...

Erməni terroru 286 nəfərin ölümüylə nəticələndi. Çingiz "yaxasını qırağa çəksəydi" bu rəqəm xeyli çox olardı.

...Təzəlikcə nəşr olunmuş "Əfsanəvi qəhrəman" kitabını kövrəkliklə vərəqləyirəm. Kövrək xatirələri könül söhbəti bilirəm və bu xatirələrin işığında Çingizin ruhuyla pıçıldaşıram: Örnək bir ömür yaşadın, Çingiz. Qətiyyətinlə, insanlara sevginlə, hərbi mundirin ləyaqətini şərəflə qorumağınla təsdiqlədin necə vətəndaş olduğunu. Südabə Sərvi ilə Aləmzər Sadıqqızının yazdığı əsər mənim könlümü vərəq-vərəq titrətdi. Duyğusal xatirələri duyğusallıqla oxudum. Oğul itirən ananın dərdini heç nə ilə ovundurmaq mümkün deyil. Bu kitab anan Səadətə, bacın Aidaya sayğılardan boy göstərən bir təsəllidi. Atan Adilin sənin yoxluğundan əyilmiş qəddini düzəltməyə bu kitabın qüdrəti çatmayacaq, ancaq cəmiyyətə bir qədər də qürurla baxacaq. Nazim Əhmədlinin bir ifadəsi sənin qəhrəmanlığı-nın söz təsdiqidi: Ölümündən o yana keçən oğul. Sənin kimi oğullar üçün ölüm son deyil. Sənin kimi oğullar ölümün üstündən keçib əbədiyyətə qovuşur. Neçə illər keçəcək, sənin də adın ehtiramla anılacaq...

Azərbaycan Respublikasının Prezidentinin 3 noyabr 1996-cı il Fərmanı ilə sənə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib...

Həmin faciə olmasaydı, həmin faciə anında orda olmasaydın, faciəyə ürcah olanları xilas etmək üçün özünü odun-alovun içinə atmasaydın, 50 yaşın olacaqdı. Hansı hərbi rütbə iləsə hardasa xidmətini davam etdirəcəkdin. O faciə olmasaydı, səninlə eyni taleyi yaşamış müdavimlər də - Samir, Nicat, Ruslan - hansı hərbi hissədənsə sənə zəng edəcəkdilər, ad gününü təbrik edəcəkdilər...

Sən hərbçi idin. Hərbçi kimi yaşadın, hərbçinin Vətən sevgisinin, mənəvi zənginliyinin, insani duyğularının nə olduğunu bir daha təsdiqlədin. Ömür bahasına...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Hüseynov Amil Ələddin oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavinləri: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid FAXRALI | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 311 Nüsxə 4570 |